ULU
AGRO

ŞİRKƏTİMİZ HAQQINDA

Ulu Agro MMC, Qax Aqro Parkı 2017 ci ildə dövlət dəstəyi əsasında Qax Rayonu ərazisində 2076 ha erazidə təsis edilmişdir. Aqro Park ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi, idxaldan asılılığın azaldılması, regionda məşğulluğun artırılması, əkin sahələrinin ənənəvi təcrübələrə arxalanaraq müasir üsullar ve son texnologiya ilə daha səmərəli istifadə edilməsi və Azərbaycanda istehsal olunan məhsulların xarici bazarlara çıxarılması və layiqincə təmsil edilməsi məqsədi ilə yaradılmışdır. Yarandığı gündən dinamik inkişaf xətti izləyən Parkda yüksək keyfiyyəti və məhsuldarlığı olan geniş çeşiddə meyvə, tərəvəz və dənli bitkilər yetişdirilir. Əldə olunan məhsullara əlavə dəyər qatmaq və regionda olan kiçik və orta biznes subyektlərinə dəstək şirkətin təməl prinsipləri sırasındadır.

Beynəlxalq standartlara uyğun keyfiyyətli və sağlam məhsullarımız xarici bazarlarda möhkəmlənməyimizə imkan yaradır və hədəflərimizdən biri Made in Azerbaijan brendini bütün dünyaya tanıtmaqdır.

Eyni zamanda şirkətimiz sosial məsuliyyət proqramlarında iştirak edir.

- *Parkda yetişdirilən məhsullar dənli bitkilər və meyvə bağları olaraq iki qrupa bölünür. Bitkiçilik buğda, qarğıdalı, arpa və soya kimi məhsullardan ibarətdir, meyvə bağları isə armud, alma, ərik, gavalı, gilas, şaftalı, qoz, üzüm və badamdan ibarətdir.*

- *700 hektar əkin sahəsində 28 ədəd ABŞ istehsalı olan Vally pivot sistemi quraşdırılmışdır; 650 hektar əkin sahələri də yağış suyu ilə suvarılır. 750 hektardan çox torpağı əhatə edən meyvə bağları Türkiyə, İspaniya və İsraildən gələn tam avtomatik damcı suvarma sistemləri ilə təchiz edilmişdir.*

- *Aqroparkda 4500 ton tutumlu müasir standartlara silos tipli anbarlar və 8000 ton taxıl anbarı tikilmişdir.*

- *Su ehtiyacları üçün 50 000, 20 000 və 10 000 kub metrlik 3 su hovuzu inşa edilmişdir.*

- *99 ədəd müxtəlif növ zəruri texnika alınmışdır.*

ƏSAS GÖSTƏRİCİLƏR

Bunlar 2021-ci il üçün bitkiçilik və bağçılıq sahəsində ən son göstəricilərimizdir.

Məhsulun Adı	Növü	2021 Əkin sahəsi (ha)	Orta Məhsuldarlıq (kq)	Əldə Olunan Məhsul
Buğda	Dəmyə	648	2495	1617010
Buğda	Pivot	401	6510	2610510
Qarğıdalı	Birinci biçin	200	10499	2099820
Qarğıdalı	Təkrar	100	8500	850000*
Arpa	Dəmyə	50	4262	213080
Arpa	Pivot	50	6510	315000
Soya	Pivot	7.5	4500	33750*
	TOPLAM	1456,5		7739170

* *Gözlənilən nəticə*

2021 ci ildə istehsal olunan 3000 tona yaxın məhsulun 92 %-i xarici bazarlara ixrac olunmuşdur.

Made in Azerbaijan brendinin dünyada tanıdılması və ölkəyə valyuta gətirilməsi uğurlarımızdan biridir.

Meyvə Bağları (ha)		Çeşidlər
Badam	356	FERRAGNES, FERRADUAL, AVİJHOR, GUARA
Üzüm	138	SULTANİ, SUPERİOR, RED GLOBE, CRİMSON, MİCHELE PARİER
Qoz	89.4	CHANDLER, FRANQUETTE
Armud	34.6	DEVECI, SANTAMARIA, NASHI, MARIA MARGARIT
Alma	39.49	JEROMIN, SCARLET SUPUR, REDCHIEF, GRANNY SMITH, GOLDEN, ROSY GLOW
Gavalı	23.58	BLACK DIAMOND, BLACK AMBER, SANTA ROSA, BLACK SPLENDOR
Qaysı	15.9	SEKERPARE, PERFECT RED
Gilas	30.4	REGINA, KORDIA, Z0900, STARKS GOLD
Şaftalı, Nektarin	31.3	CALDESI 200, VENUS, ELEGANTLADY, CRISTHAVEN
TOPLAM	759 ha	

Meyvə Bağları (ha)		Çeşidlər
Badam	356	FARRAGNES
		FERRADUAL
		AVIJHOR
		GUARA

ULU
AGRO

2019-cu ildə əkilən üzüm bağlarında yüksək məhsuldarlıq əldə edilmişdir.

Belə ki, hər hektar üzrə ortalama 14 ton keyfiyyətli üzüm yığılmış və həcmin 98%-i Rusiya və Ukraina bazarlarına ixrac edilmişdir.

Meyvə Bağları (ha)		Çeşidlər
Üzüm	138	SULTANI
		SUPERIOR
		MICHELE PARIER
		RED GLOBE
		CRIMSON

ULU
AGRO

BİTKİLƏRİN MÖVSÜMLÜYÜ

Davamlı ərzaq zəncirinin əhəmiyyətini yüksək qiymətləndirərək və müştərilərimiz adından müasir dünyanın çağırışları qarşısında onu qoruyaraq bitkilərin mövsümlülüyünün önəmli rol oynadığını xüsusilə qeyd edirik. Burada bitki hasilatı cədvəlini müştərilərimizə təqdim edirik.

		YANVAR	FEVRAL	MART	APREL	MAY	İYUN	İYUL	AVQUST	SENTYABR	OKTYABR	NOYABR	DEKABR
Badam	FERRAGNES												
	FERRADUAL												
	AVİHOR												
	GUARA												
Üzüm	SUPERİOR												
	SULANİ												
	RED GLOBE												
	MİCHELE PARİELE												
	CRİMSON												
Qoz	CHANDLER												
	FERNOR												
	FRANQUETTE												
	FERNETTE												
Armud	ETRUŞKA												
	SANTA MARİA												
	NASHİ												
	DEVECİ												
Alma	JEROMİNE												
	RED CHİEF												
	GOLDEN												
	SCARLET SPUR												
	ROSY GLOW												
Gavalı	BLACK SPLENDOR												
	SANTAROSA												
	FORTUNA												
	BLACK DİAMOND												
	ANGELİNO												
Qaysı	PERFECT RED												
	ŞEKERPARE												
Gilas	ZİRAAT 0900												
	REGİNA												
	KORDİA												
Şaftalı	ROYAL GLORY												
	CALDESİ 2000												
	ELEGANT LADY												
	CRİSTAVEN												
	Buğda kq							4437000					
	Soya kq					376000							
	Qarğıdalı kq								2211000			2000000	

ULU
AGRO

İDARƏETMƏ MƏRKƏZİ

Peşəkar komandamızın gücü GÜCÜMÜZDÜR!

Dünyanın qabaqcıl şirkətləri ilə sıx əməkdaşlığımız, onların təcrübələrinin öyrənilməsi, tətbiqi və eyni zamanda Aqro Parkda çalışan xarici mütəxəssislərimizin yerli mütəxəssislərlə vəhdəti inkişafımızı daha da dinamik edir.

ULU AGRO

EKO TURIZM BAĞI

Aqro Park ərazisində 50 hektarı əhatə edən Eko Turizm bölməsi yaradılmışdır. Sahənin yaradılması regionda kənd təsərrüfatı turizmi mədəniyyətinin formalaşdırılması və inkişafı məqsədi daşıyır.

Ziyarət edən qonaqlar bütün Agro Park ərazisində yetişdirilən meyvələr və çeşidlərini, eyni zamamda regiona xas olan yerli sortlarla Eko Turizm bölməsində tanış ola bilərlər.



LOGİSTİKA PARKI

ULU AGRO MMC aqroparkla əlaqəli yeni tikilmiş logistika mərkəzini də idarə edir. Kənd təsərrüfatı məhsullarının artımında və istehsalın davamlı genişlənməsində logistikanın əhəmiyyəti həmişə yüksək qiymətləndirilir. İqtisadiyyat və nəqliyyat hərləri olmadan əkinçilik sahəsindəki hər hansı bir layihə inkişafda böyük çətinliklərlə üzləşəcək. Beləliklə, logistika mərkəzinin inkişafı bizim üçün çox vacib bir hadisədir. Bu mərkəz məhsulu ən qısa müddət-də toplamaq, saxlamaq, qablaşdırmaq və nəql etmək üçün lazım olan bütün infrastrukturu və imkanlarını ehtiva edir.

Logistika mərkəzinin ümumi sahəsi 5480 kv.m olan 4 anbardan, aqro texnika üçün qaraj və texnika anqarlarından, yük maşınları üçün çəki nəzarət sistemindən, dayanacaq qurğularından, yanacaqdoldurma məntəqəsindən, ofisləri olan mərkəzləşdirilmiş idarəetmə mərkəzindən, oteldən, təhlükəsizlik sistemindən və s. ibarətdir.

MADDİ TEXNİKİ BAZA

Kənd təsərrüfatı sahəsində qabaqcıl texnologiyaların öyrənilməsi və istifadəsi şirkətimiz üçün adət ən ənənə halını almışdır. Əkin sahələrinin effektiv və səmərəli istfadəsi üçün bazamızda 99 eded texnika və avadanlıq mövcuddur. Torpağın işlənməsindən başlayaraq budama və meyvə yığımına qədər bir çox vacib işlər tam avtomatlaşdırılmışdır

KƏND TƏSƏRRÜFATI SAHƏSİNDƏ İNNOVASİYA

Çətin görünməsinə baxmayaraq, kənd təsərrüfatı sahəsi hər il böyük yeniliklərin meydana gəldiyi məkandır.
Və biz də bu prosesin bir hissəsiyik. Timesoft MMC -dəki tərəfdaşlarımızla birlikdə xüsusi olaraq aqroparklar və məhsul yetişdirən müəssisələr üçün nəzərdə tutulmuş unikal və müasir ağıllı idarəetmə sistemini inkişaf etdirdik. Sistemin əsas funksiyaları aşağıdakılardır:

- *İşçilərin məsuliyyətindən asılı olaraq tam fərdiləşdirilmiş profillər və giriş nöqtələri;*
- *Peyk vasitəsi ilə və erazilərdə quraşdırılan Davis cihazlarından alınan datalar əsasında qabaqlayıcı tədbirlər görmək;*
- *Əməliyyatlar, idarəetmə qərarları, xəritəçəkmə, strukturlar, etiketləmə və qaynaq xərclərinin hamısını bir yerdə qurmaq imkanı;*
- *Vaxt cədvəlləri və müalicələr daxil olmaqla bitkilər və torpaq sahələri üçün tam məlumat mövcudluğu;*
- *Təşkilat daxilində bütün idarəetmə və əməliyyat fəaliyyətlərini idarə etmək və təşkil etmək üçün xüsusi planlaşdırma;*
- *Avadanlıqların, qurğuların, maşınların istifadəsinin və təhlükəsizlik sistemlərinin nəzərdən keçirilməsinə nəzarət.*

ULU AGRO

ŞAXƏLƏNMƏ

Böyümə həyatın həqiqətidir, güclənmək və daim dəyişən iş mühitinə uyğunlaşmaq üçün zərurətdir. Sürətli böyüməni dəstəkləmək üçün əsas fəaliyyətlərimizlə əlaqədar bir neçə layihə də hazırladıq.

- *Timesoft MMC: IT həlli yollarının inkişafı və inteqrasiyası üçün təsis edilmişdir, vəzifələrə ERP və ya CRM sistemlərinin, digər verilənlər bazası funksiya sistemlərinin təkmilləşdirilmiş formalarının yaradılması daxildir. Timesoft MMC -nin bacarıqlı komandası müştərinin şərtlərinə və planlarına əsaslanan hər növ layihəni idarə etmə imkanına malikdir.*

- *Madena MMC: bütün ixrac fəaliyyətlərimizi həyata keçirən və xarici müştərilərə göndərişləri təşkil edən ticarət şirkətidir. İxrac xəritəmizdə artıq Rusiya və Ukrayna var və onu hər il genişləndirməyi planlaşdırırıq.*

- *Multimoverz MMC: Nəqliyyat və logistika şirkəti, çatdırılma və ixracat ehtiyaclarımızı təmin etmək üçün yaradılmışdır. Hava yükü, dəmir yolu, yük maşını və konteyner daşımaları da daxil olmaqla hər cür logistika xidmətləri təklif edir, hətta layihə göndərmələri şirkətin bacarıqlı komandasının səlahiyyəti daxilindədir.*

Ticarət şirkətimiz ULU GARDENS markası ilə istehsal ehtiyimiz məhsulları Rusiya və Ukrayna bazarlarında satışını təşkil edir. Müştərilərimiz üçün dayanıqlı və etibarlı təhcizatçı və partnyor olmağımız digər təsrərrüfatlarında məhsullarının eyni marka ilə ixracını həyata keçirməyimizə imkan yaradır. İxrac coğrafiyasının genişləndirilməsi üçün daim danışıqlar aparılır. Təcrübəli komandamız dünyanın ən böyük sərgilərində iştirak edir, öz təcürəbələrini və əlaqələrini artırmağa nail olurlar. Bunlara misal olaraq, Fruit Logistica Berlin, Sial Paris, World Food Moscow, World Food Dubai, Anuga China sərgilərini qeyd etmək olar.

ULU GARDENS timesoft MADENA MULTI MOVERZ

GƏLƏCƏK PLANLAR

Müəssisəmizin bölgədə güclü bir kənd təsərrüfatı mərkəzi yaratmaq üçün yol xəritəsi var və bu vəzifəni yerinə yetirmək üçün biz bir neçə gələcək planı həyata keçirmək niyyətindəyik.

Belə ki, hazırda biz aqroparkın ərazisində müxtəlif məhsul və meyvələr üçün ümümi tutumu 6000 ton olan merheleli soyuducu anbar layihəsini işləyirik. Bununla yanaşı ikinci və üçüncü nəsil hazır məhsullar üçün badam emalı xətti, meyvə qurutma avadanlıqlarının gətirilməsi istiqamətində araşdırmalar aparılır.

Meyvə bağlarının artırılması da gələcək planlarımızın bir parçasıdır. Əldə etdiyimiz yüksək məhsuldarlıq və keyfiyyətə əsaslanaraq xüsusilədə üzüm və badam bağlarının genişləndirilməsi prioritet olaraq görülür.

PARTNYORLARIMIZ

tenías

viveros veron

MARS

Ярче!

АТБ

aybarus

ВкусВилл

VALLEY

NETAFIM

МариярРа

X5 RETAIL GROUP

NEW HOLLAND

SPAR

ULU
AGRO